# Azərbaycan Dövlət Pedaqoji Kolleci sosial və ictimai aspektdə

Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində olan Azərbaycan Dövlət Pedaqoji Kolleci artıq 100 illiyini qeyd edir. Bu uzun yolda kollec dəfələrlə çətinliklərlə üzləşsə də, hər birindən üzüağ, daha çox təcrübə qazanmış halda çıxmış və tarixinə qızıl hərflərlə böyük uğurlar yazmışdır. Keçən illər ərzində yeni metodikalar hazırlanmış, tələbə cəmiyyətləri fəaliyyətə başlamışdır. Kollecin 100 illik tarixində hər zaman dəyişikliklər olsa da, yeniliklərlə kollec daha da inkişaf etsə də məqsəd heç dəyişmədi. Sözsüz əsl məqsəd işinin peşəkarı, yüksək insani keyfiyyətlərə malik müəllim yetişdirmək idi. Bu gün də kollec həmin məqsədə sadiq qalaraq yoluna davam edir.

Azərbaycan Dövlət Pedaqoji Kolleci bu il sosial və ictimai işlərə 100 illik tarixinə yaraşacaq şəkildə davam edir. Kollec yarandığı dövrdən yüksək təhsil və tərbiyə verməklə, peşəkar, öz işinin əhli olan mütəxəssislər yetişdirməklə yanaşı kollecdaxili ictimai və sosial məsələlərə də böyük diqqət göstərmişdir. Həmin sosial fəaliyyətlər və ictimaiyyətlə qurulan əlaqələr sayəsində tələbələr yüksək ünsiyyət bacarıqlarına yiyələnmiş, özlərini daha doğru ifadə etməyi öyrənmişlərdir. Qurulan bir çox əməkdaşlıqlar, kollecdə təşkil edilən sosial əhəmiyyətli tədbirlər tələbələrin gələcək fəaliyyətlərində doğru istiqamət almalarına yardımçı olmuşdur. Hal-hazırda bu fəaliyyətləri davam etdirən kollecin Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə direktor müavini Sevda Axundovadır. Sevda Axundova tələbələrin sosiallaşması, asudə vaxtlarını daha səmərəli keçirmələri üçün bir sıra təşkilati işlər aparır. Bunlarla yanaşı psixoloji durumu daha həssas, müəyyən əngəllərə sahib tələbələrə, keçirilən tədbirlərdə onların yaxından iştirakına böyük diqqət göstərir. Yeni tədris ilinin başlanğıcında "Mən müəllimdən yüksək ad tanımıram" adlı müəllimlər gününə həsr edilmiş tədbir tam olaraq da belə tələbələrin iştirakı ilə hazırlanmış, ümumilikdə böyük psixoloji əhəmiyyət kəsb etmişdir. Sosial fəaliyyətlərin təşkil edilməsində məqsəd aktiv tələbələrlə yanaşı, özgüvəni zəif, potensialının fərqində olmayan, ünsiyyət çətinlikləri çəkən, müəyyən əngəllərə sahib (autizm, görmə, eşitmə əngəlli) tələbələri də fəaliyyətə cəlb etmək və onların asanlıqla özlərini doğru ifadə etmələrinə, bir sıra psixoloji problemlərinin aradan qalxmasına yardım etməkdir. Keçirilən tədbirlərlə yanaşı, sosial fəaliyyətlərin artırılması üçün kollecdə debat və yazarlar klubu yaradılmış, görmə əngəlli tələbələrin kitabları asanlıqla dinləmələri, anlamaları üçün səsli kitab və həmçinin Təhsil Nazirliyinin "Mənimlə danış" layihəsi artıq kollecdə tətbiq edilməyə başlanılmışdır.

✍ **Sevda Axundova,**
Azərbaycan Dövlət Pedaqoji Kollecinin direktor müavini



İki sahil.-2019.- 4 dekabr.- S.14.